No: 03 2025
https://doi.org/10.64400/ea25-3-13
ISSN 2224-5529 2224-0829 2223-5124 2222-940X

NAXÇIVAN DÖVLƏT
UNİVERSİTETİNİN
ELMİ ƏSƏRLƏR JURNALI

# TƏRBİYƏNİN NİKBİNLİK PRİNSİPİNİN BULLİNQİN QARŞISININ ALINMASINDAKI PEDAQOJİ İMKANLARI

**Günay MƏMMƏDZADƏ**

Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti, Bakı, Azərbaycan
*Yazışılan müəllif: gunaymemmedzade08@gmail.com*

**NƏŞR TARİXİ:**
*Qəbul edilmə tarixi:* *25.08.2025*
*Nəşr edilmə tarixi:* *28.10.2025*

**AÇAR SÖZLƏRİ:**
bullinq,
məktəb,
tərbiyə,
nikbinlik prinisipi,
strategiyalar

**XÜLASƏ**

Məqalədə müasir dövrdə məktəblərdə ciddi problemə çevrilmiş bullinq hallarından danışılır. Burada müxtəlif alim və tədqiqatçıların bullinq haqqındakı fikirlərinə əsaslanaraq bildirilir ki, bullinq bir və ya bir neçə şəxs tərəfindən özünümüdafiə qabiliyyəti az olan şagirdə dəfələrlə edilən şifahi, fiziki, psixoloji zorakılıq faktıdır. Bullinq qurbanın şəxsi inkişafına və akademik uğurlarına mane olduğu kimi, bullerin də mənfi obraz kimi böyüməsinə və gələcəkdə həm özünə həm də cəmiyyətə zərərli şəxs kimi formalaşmasına səbəb olur. Bullinq hallarına pedaqoji aspektdən yanaşılaraq bildirilir ki, bu tərbiyə prosesinin düzgün aparılmamasından qaynaqlanan bir hal olub elə həll yolu da tərbiyənin prinsiplərindən düzgün istifadə ilə mükündür. Bu xüsusda tərbiyənin nikbinlik prinsipinin imkanları xüsusilə genişdir. Nikbinlik prinsipi sinifdə müsbət mühitin yaradılması, şagirdlər arasında empatiya hissinin inkişaf etdirilməsi, motivasiya və özünəinamın yaradılması, münaqişələrin idarəolunması imkanlarına malikdir.
Nikbinlik prinsipinin ən üstün xüsusiyyətlərindən biri olan istənilən mənfi obrazdakı kiçik də olsa yaxşı xüsusiyyətin tapılması, gələcəyə doğru müsbət inamın formalaşdırılması halları bullerin yaxşı insan kimi formalaşdırılmasına, qurbanda isə özünəinam və özünəhörmət hallarının inkişaf etdirilməsinə səbəb olacaqdır ki, nəticə olaraq bu da öz növbəsində onları bullinqin iştirakçıları siyahısından çıxaracaqdır.

## GİRİŞ

İnsan doğulandan ölənə kimi tərbiyə adlı prosesdən keçir. İstənilən yaş dövründə insan tərbiyə alır, inkişaf edir, bəzən yenidəntərbiyə, bəzən isə özünütərbiyə mərhələlərindən keçərək şəxsiyyət kimi formalaşmağa çalışır. Y.A.Komenski bildirirdi ki “İnsan yalnız tərbiyə sayəsində insan olur” (Hüseynzadə R., Əzizova Z., Əliyev S., Verdiyeva Ü. 2021).

Tərbiyə insanın şəxsiyyət kimi formalaşmasına, onun əxlaqi, mənəvi, intellektual, fiziki və psixoloji inkişafına yönəlmiş məqsədyönlü prosesdir. Yalnız tərbiyə sayəsində fərd cəmiyyətin davranış qaydalarına uyğunlaşır, sosiallaşır, özünü formalaşdıra bilir.

Tərbiyənin əsas hədəfi, məqsədi yüksək mənəvi keyfiyyətə malik, zəngin dünyagörüşünə, xeyirxah əmələ sahib, mədəni, humanist, hərtərəfli inkişaf etmiş şəxsiyyət formalaşdırmaqdır.

Tərbiyə ailədə başlayıb təlim-tədris müəssisələrində pedaqoqlar tərəfindən şəxsiyyətin formalaşması və inkişafı məqsədilə təşkil edilmiş pedaqoji prosesdir. Tərbiyə mütəşşəkkil, planlı şəkildə aparılmalıdır. Yalnız bu təqdirdə qarşıya qoyulmuş məqsədə çatmaq mümkündür.

Məlumdur ki, məktəblərdə təhsil prosesinin yaxşı qurulması üçün təlim və tərbiyə məsələlərinə də diqqət yetirilməlidir. Yalnız bundan sonra uğurlu nəticə almaq olar. Tərbiyə olmayan yerdə uğurlu təhsildən, cəmiyyət üçün yararlı vətəndaş yetişdirilməsindən söz gedə bilməz.

Dövləti var edən onun vətəndaşlarıdır. Əgər bir dövlətdə vətəndaşlıq tərbiyəsinə, şəxsiyyət yetişdirilməsi məsələsinə önəm verilirsə o dövlətin güclü olacağı danılmazdır. Bunlar isə başlıca olaraq tərbiyə vasitəsilə həyata keçirilir ki, bu məsələnin həyata keçirilməsi vəzifəsi həmçinin təhsil müəssisələrinin öhdəliyinə düşür.

Dövlətimiz vətəndaş tərbiyəsinə böyük önəm verərək Azərbaycan Respublikası Təhsil haqqında qanunun 9-cu maddəsində Azərbaycan Respublikasında təhsilin qarşısında bir sıra məqsədlər müəyyənləşdirir: Azərbaycan dövləti qarşısında öz məsuliyyətini dərk edən, xalqının milli ənənələrinə və demokratiya prinsiplərinə, insan hüquqları və azadlıqlarına hörmət edən, vətənpərvərlik və azərbaycançılıq ideylarına sadiq olan, müstəqil və yaradıcı düşünən vətəndaş və şəxsiyyət yetişdirmək (edu.gov.az, 2009).

Bu məqsədlərin həyata keçirilməsi isə yalnız və yalnız tərbiyə vasitəsilə mümkündür.

## MATERİAL

Ümumtəhsil məktəblərində tərbiyə prosesinin düzgün qurulması zamanı qarşıya bir sıra problemlər çıxır ki, bullinq də bu problemlərdən biridir. Bullinq müasir dövrdə məktəblərin qarşılaşdığı ən ciddi problemlərdən biridir. Bullinq hallarının məktəbdəki tərbiyə prosesinin pozulmasında xüsusi çəkisi vardır.

Qeyd edilməlidir ki, bullinq problemi keçən əsrin sonlarından Skandinaviya ölkələrində tədqiq olunmağa başlayıb və bundan sonra problemin ciddiliyi və təhsil, təlim və tərbiyə sahəsinə vurduğu zərər aydınlaşdırılmışdır. Sonradan dünyanın bir sıra aparıcı ölkələri bullinqlə bağlı tədqiqatlar başlatmış, məsələni pedaqoji, psixoloji və sosioloji istiqamətdən tədqiq etmişlər.

Bullinq sözünü elmi ədəbiyyata daxil edən D.Olveusa görə bullinq aralarında fiziki və mənəvi cəhətdən güc disbalansı olan bir və ya bir neçə şəxsin, zəif tərəfə mütəmadi və məqsədyönlü şəkildə fiziki, sözlü və psixoloji təzyiqidir (Olveus D. 1993).

Bullinqin məşhur tədqiqatçılarından V.M. Kreiq və D.J.Peplerə görə isə bullinq şagirdlər arasında münasibət problemi olub, aqressiya vasitəsilə şəxslərarası gücün göstərilməsidir ki, bu zaman düşmənçilik məqsədi daşıyan, qurbanlara stress yaradan, zamanla təkrarlanan və bullerlərlə qurbanlar arasında güc fərqini ehtiva edən neqativ fiziki və şifahi hərəkətlər nümayiş etdirilir (Craig,M.W.&Pepler, J.D. 2003)

Tədqiqatlar nəticəsində bullinqin şifahi, fiziki, sosial, kiber, psixoloji kimi növləri müəyyənləşdirilmişdir ki, bu növlərin hər biri bullinqə məruz qalan qurbanlara destruktiv təsir göstərir.

Bullinqin ciddi problem kimi qəbul olunma səbəblərindən biri də onun təkrarlanan olmasıdır. Belə ki, bullinq zamanı bullerlə qurban arasındakı mənfi davranış formaları daima təkrarlanır, buller davranışları nəticəsində güclənir, qurbanlar isə özlərinəinamı, hörməti, ümidi itirir. Və bu cür disbalansda bullinqə məruz qalan şagirdlər özlərini müdafiə etməkdən aciz olurlar.

Bullinq hadisəsi zamanı yalnız qurbanlar deyil, həm də bullinq edənlər də risk qrupu altındadırlar. Bullerlər qanun pozuntuları, cinayətkarlıq və narkotik maddə istifadəsi kimi qeyri-qanuni fəaliyyətlərlə məşğul olmaq riski altındadırlar. Bu uşaqlar həmçinin məktəbin oyun meydançasındakı bullinqdən tutmuş, cinsi təcavüzə kimi güc və aqressiya istifadəsini genişləndirmək riski daşıyırlar (Craig,M.W.&Pepler, J.D. 2003).

Bütün bu problemlərin isə yeganə çıxış yolu düzgün tərbiyədir. Şagirdlərin tərbiyəsi zamanı tərbiyənin prinsiplərindən düzgün istifadə bullerlərin və qurbanların həyata baxışlarını, insanlarla davranışını dəyişə bilər. Bullinqlə mübarizədə tərbiyənin bir sıra prinsipləri müsbət nəticələr əldə etməyə imkan verir. Tərbiyənin "nikbinlik prinsipi" də bullinqin qarşısının alınmasında imkanları olan prinsiplərdən biridir. Lakin bu prinsipin bullinqlə mübarizədəki imkanlarını araşdırmamışdan öncə bullinqin iştirakçılarından olan buller (bullinqə məruz qalan şəxs) və qurban haqqında məlumat verilməsi məqsədəuyğundur.

Bullerlər bullinqi törədən şəxslər olub fiziki və ya mənəvi cəhətdən öz qurbanlarından güclü olurlar. Onlar aqressiv davranışlara sahib olub, özlərini təsdiq etmək üçün onlardan mənəvi və fiziki cəhətdən zəif olan şagirdləri seçərək qurbanlarını gülüş hədəfinə çevirir, alçaldır, fiziki və

mənəvi təzyiq göstərirlər. Onlar müəllimlərə qarşı itaətkarsızlıqları ilə seçilir, empatiya hissləri zəif olur, valideynləri, məktəb rəhbərliyi ilə daima mübahisələri olur, güc və hökmranlıq hərisliyinə meyillilikləri ilə seçilir, pis vərdişlərə sahib və ya meyilli olurlar, qısqanc olur və məğlubiyyəti həzm edə bilmirlər.

Qurbanlar bullerlərdən fərqli olaraq özünəinamı az olan, özünü ifadə edə bilməyən, özünəqapanan, itaətkar, fiziki cəhətdən cılız və ya əksinə sinifdə ən çox sevilən, dərslərini yaxşı oxuyan şagirdlər arasından ola bilir.

Bullinq halları doğru qurulmayan tərbiyə prosesinin nəticəsidir. Bildirildiyi kimi uşaqlar ilkin olaraq ailədə tərbiyə alırlar. Düzgün aparılmayan tərbiyə onlarda aqressiya, ərköyünlük, mənəmmənəmlik və ya özünəqapanma, özünəinanmama, sosiallaşa bilməmə və s. kimi mənfi xüsusiyyətlər yaradır.

Bullerlərin aqressiyasının bir sıra səbəbləri olur ki, buraya valideynlərin həddindən artıq ciddi olması və ya uşaqla heç maraqlanmaması, bullerin zorakılığın adi davranış formasına çevrildiyi ailədə böyüməsi, bullerə zorakılığın tətbiq edilməsi, qısqanclıq, mənəmmənəmlik iddiası kimi faktorları aid edə bilərik.

Şagirdlərin qurbana çevrilməsində ailələrinin də rolu vardır. Belə ki, qurbanların valideynlərinin həddindən artıq qoruyucu olması onların formalaşmasının qarşısını alır. Bundan başqa zorakılığa meyilli olan valideynlərin övladları da qurbana çevrilirlər. Daima valideyn təzyiqi altında əzilən uşaqda özünəinam, özünümüdafiə xüsusiyyətləri formalaşmır ki, bu da onu bullerlərin hədəfinə çevirir.

Düzgün qurulmayan tərbiyə prosesinin nəticəsi olan bullinq halları məhz elə tərbiyə prosesinin imkanları ilə aradan qaldırıla bilər. Yuxarıda bullinqin aradan qaldırılmasında nikbinlik prinsipinin imkanları vurğulanmışdır.

Nikbinlik prinsipinin xüsusiyyətinə görə pedaqoq mənfi xüsusiyyətə malik şagirdə nikbin nəzərlərlə yanaşmalı, onun gücünə, müsbət gələcəyinə, dəyişə biləcəyinə inanmalı və tərbiyə olunanı da inandırmalıdır (Hüseynzadə R., Qəhrəmanova K. 2005).

Şagirdə mənfi möhürlər vurulmamalı, onun gələcəyinə ümidlə baxılmalıdır. Bu prinsip pedaqoqa imkan verir ki, onun imkanlarından istifadə edərək bulleri tərbiyə etsin. Bu prinsipin imkanlarından geniş istifadə edən A.S.Makarenko cinayətkar yeniyetmənin tərcümeyi-halını hər kəsin qarşısında yandırar və deyərdi: "Uşağın keçmişində eşələnməyin tərbiyəyə heç bir köməyi yoxdur. Bizə onun dünəni yox, bu günü və sabahı vacibdir" (Makarenko A.S. 1957).

Nikbinlik prinsipi insanın müsbət cəhətlərinə diqqət yetirməyi və onu inkişaf etdirərək mənfi xüsusiyyətlərini aradan qaldırmağı nəzərdə tutur. Bu prinsip tərbiyə prosesinin ayrılmaz hissəsi olub, həm təhsil mühitinin yaxşılaşdırılmasında, həm də bullinqin təsirlərini azaltmaqda mühüm rol oynayır.

Nikbinlik prinsipi bullerin xarakterinin müsbətə doğru dəyişəcəyinə inamı, onda ən az nəzərəçarpacaq müsbət halı belə görüb onu inkişaf etdirməyi və bulleri müsbət obraza çevirməyi ifadə edir. Nikbinlik prisnipinə görə müəllim şagirdə dəyişməz varlıq kimi baxmamalı, keçmişi deyil, gələcəyi nəzərə almalıdır. Əks halda yenidəntərbiyə və bullerin özünütərbiyəsi baş verməz və sinifdə, eləcə də məktəbdə bullinqin azalması müşahidə olunar.

Tərbiyədə nikbinlik prinsipinin əsas yanaşmalarından biri A.S.Makarenkonun "Etimadın əvvəlcədən göstərilməsi" və ya "Şans vermək"dir. Bu yanaşmaya əsasən istənilən pis vərdişinə, səhvlərinə və uğursuzluqlarına baxmayaraq tərbiyə olunana etimad olunur və müsbət xarakterə çevrilməsi üçün yeni bir şans verilir. Belə pedaqoji dəstək tərbiyə olunanın özünə olan inamının itməməsi üçündür. Buna görə də pedaqoq tərbiyə olunanın hətta ən kiçik nəaliyyətlərini belə dəstəkləməlidir (Makarenko A.S. 1958).

**Tərbiyənin nikbinlik prinsipi vasitəsilə bullinqin qarşısının alınması aşağıdakı yollarla mümkündür:**

**1.** Pozitiv mühitin yaradılması:

Tərbiyədə nikbinlik prinsipi, məktəblərdə müsbət mühitin yaradılmasına kömək edərək dəstəkləyici mühitin yaranmasına səbəb olur. Bu cür mühit öz-özlüyündə bullinqin yaranmasının qarşısını almaq imkanına malikdir.

**2. Müəllim-şagird və şagird-şagird arasında etibarlı mühitin formalaşdırılması.**

Nikbinlik prinsipinin xüsusiyyətləri imkan verir ki, şagird-şagird və müəllim-şagird münasibətlərində etibarlılıq yaransın. Belə mühit şagirdlərin özünü təhlükəsiz hiss etməsinə səbəb olur. Bu cür mühitdə qurbanlar özlərini təhlükəsiz hiss edir və onlarda bullinqlə mübarizə apara bilmək cəsarəti formalaşdırır. Bullerlərdə isə aqressiya azalır və empatiya hissləri inkişaf edir.

3. **Motivasiya və özünəinamın yaranması**

Nikbinlik prinsipinin əsas xüsusiyyətlərindən biri də şagirdlərdə özünəinam və motivasiya yaratmasıdır. Bu prinsip şagirdlərin emosional və psixoloji inkişafını dəstəkləyən təsirli pedaqoji yanaşmadır. Nikbinlik prinsipinin imkanları vasitəsilə müəllim qurbanların özünəinamını gücləndirərək onlarda özünümüdafiə bacarıqlarını inkişaf etdirə bilər. Bu da öz növbəsində bullinqin mənfi təsirlərini azaltmağa kömək edəcəkdir. Müəllimin, qurbanın güclü tərəflərini müşahidə edib onu vurğulaması o şagirdin psixoloji cəhətdən güclənməsini təmin edir.

Buller olan şagirdlərə gəldikdə isə, nikbin yanaşma onların müsbət xüsusiyyətlərini önə çıxarıb tərifləyərək davranışlarının dəyişdirilməsinə dəstək ola bilər. Beləliklə həmin şagirdlər özlərini müsbət obrazda görərək daha sağlam davranış modellərinə keçid edə bilərlər. Nikbinlik prinsipi həm bullerin, həm də qurbanın həyatında mühüm irəliləyişlərə səbəb ola bilər və onların təhsil və tərbiyə yolunda daha uğurlu olmalarını təmin edə bilər.

**4. Empatiya hissinin yaradılması və inkişaf etdirilməsi**

Empatiya hissinin yaradılması və inkişaf etdirilməsi bullinqlə mübarizədə ən əlverişli üsullardan biridir ki, onun vasitəsilə tədris prosesində uğurlar əldə edilməsi mümkündür. Müəllim tərəfindən sinifdə müsbət mühitin yaradılması və inkişaf etdirilməsi şagirdlər arasında empatiyanın formalaşdırılmasına kömək edir. Bunun nəticəsində də sinifdə konfliktlərin sayı azalır.

**5. Müsbət münasibətlərin yaradılması:**

Sinifdə müsbət münasibətlərin qurulması şagirdlərin emosional inkişafına və yaxşı sosiallaşmasına birbaşa təsir edən amillərdəndir. Sinifdə müsbət münasibətlərin yaradılması həm müəllimlərin, həm də valideynlərin öhdəliyinə düşür. Onlar şagirdlərə sağlam ünsiyyət nümunələri təqdim etməklə daha güclü sosial dəstəyi təmin etmiş olurlar. Bu da öz növbəsində şagirdlər arasında daha güclü sosial və emosional bağlılığı artırar və birgə əməkdaşlıq ruhunun yaranmasına kömək edər.

**6. Münaqişələrin idarə olunması:**

Nikbinlik prinsipinin tətbiqi sinifdə münaqişələrin səmərəli şəkildə idarə edilməsini təmin edir. Nikbinlik prinsipinin imkanları ilə sinifdə baş verən hər hansı münaqişəyə müsbət yönündən baxılması şagirdlər arasında qəzəb, kin kimi mənfi emosiyaları soyudaraq və daimi olmamasına səbəb olacaqdır. Münaqişələr zamanı tərəflərə hörmətli və konstruktuv şəkildə ünsiyyət qurmağı öyrətmək, problemlərin qalıcı iz buraxmadan həll olunmasına imkan yaradacaqdır.

## ƏLDƏ EDİLƏN NƏTİCƏLƏR

Nəticə olaraq deyilməlidir ki, nikbinlik prinsipi buller və qurbanların müsbətə doğru dəyişmələri, tərbiyə olunmaları üçün tövsiyyə olunan etibarlı prinsipdir və bullinqə qarşı mübarizədə öz müsbət tövhələrini verir. Belə ki, nikbinlik prinsipinin imkanlarından istifadə edərək ümumtəhsil məktəblərində pozitiv mühitin yaradılması, müəllim-şagird və şagird-şagird arasında etibarlı mühitin formalaşdırılması, **qurbanlarda motivasiya və özünəinamın yaranması, şagirdlər arasında** empatiya hissinin yaradılması və inkişaf etdirilməsi, müsbət münasibətlərin yaradılması, münaqişələrin idarə olunması məktəblərdə bullinq hallarının azalmasına səbəb olur.

## ƏDƏBİYYATLAR


1. Craig,M.W.&Pepler, J.D. (2003). Identifying and targeting risk for involvement in bullying and victimization. USA.

2. Hüseynzadə R., Əzizova Z., Əliyev S., Verdiyeva Ü. (2021) Pedaqogika “Dərslik” Bakı.
3. Hüseynzadə R., Qəhrəmanova K. Tərbiyə, Hüquqi-normativ əsaslar. (2015) “Dərslik” Bakı.
4. Макаренко А.С. (1957). Лекции о воспитании детей. Москва.
5. Макаренко А.С. (1958) Методика организации воспитательного процесса. Москва Изд. АПН РСФСР. Т.5.
6. Olweus D. (1993) Bullying at school. What we know and what we can do? Norway: Blackwell Publishing.
7. Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi. Təhsil haqqında Azərbaycan Respublikasının qanunu. 2009. https://edu.gov.az/az/esas-senedler/tehsil-haqqinda-azerbaycan-respublikasinin-qanunu

## ABSTRACT

## PEDAGOGICAL POTENTIAL OF THE OPTIMISM PRINCIPLE IN EDUCATION FOR PREVENTING BULLYING

**Gunay Mammadzade**

The article addresses the issue of bullying, which has become a significant problem in modern schools. Based on the opinions of various scholars and researchers, it is stated that bullying refers to repeated verbal, physical, or psychological violence inflicted by one or more individuals on a student with limited self-defense abilities. Bullying not only hinders the victim's personal development and academic success but also causes the bully to grow into a negative character, potentially becoming a harmful individual to both themselves and society in the future.

From a pedagogical perspective, bullying is considered a phenomenon stemming from the improper conduct of the educational process, with its resolution possible through the correct application of educational principles. In this regard, the potential of the optimism principle is particularly noteworthy. The optimism principle encompasses creating a positive environment in the classroom, fostering empathy among students, promoting motivation and self-confidence, and managing conflicts effectively.

One of the most outstanding features of the optimism principle is identifying even the smallest positive trait in a negative character and fostering a positive belief in the future. This approach contributes to shaping the bully into a better person while enhancing self-esteem and self-confidence in the victim. As a result, both individuals are likely to be removed from the list of participants in bullying incidents.

**Keywords:** bullying, school, education, optimism principle, strategies

## РЕЗЮМЕ

## ПЕДАГОГИЧЕСКИЙ ПОТЕНЦИАЛ ПРИНЦИПА ОПТИМИЗМА ВОСПИТАНИЯ В ПРЕДОТВРАЩЕНИИ БУЛЛИНГА

**Гюнай Мамедзаде**

В статье рассматривается проблема буллинга, которая в современный период стала серьезной проблемой в школах. Основываясь на мнениях различных ученых и исследователей, указывается, что буллинг представляет собой повторяющееся словесное, физическое или психологическое насилие, совершаемое одним или несколькими лицами в отношении ученика, обладающего ограниченной способностью к самозащите. Буллинг не только препятствует личностному развитию и академическим успехам жертвы, но и способствует формированию булли как негативного образа, который в будущем может стать вредным для самого себя и общества.

С педагогической точки зрения буллинг рассматривается как явление, возникающее в результате неправильного ведения воспитательного процесса, решение которого возможно благодаря правильному применению принципов воспитания. В этом контексте особенно выделяются возможности принципа оптимизма. Принцип оптимизма включает создание положительной атмосферы в классе, развитие чувства эмпатии среди учеников, формирование мотивации и уверенности в себе, а также управление конфликтами.

Одной из самых выдающихся характеристик принципа оптимизма является выявление даже самых незначительных положительных качеств в негативном образе и формирование позитивной веры в будущее. Это способствует превращению булли в лучшего человека, а также развитию уверенности в себе и самоуважения у жертвы, что в свою очередь позволяет исключить их из списка участников буллинга.

**Ключевые слова:** буллинг, школа, воспитание, принцип оптимизма, стратегии